Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

**Tikintiyə icazə və tikinti obyektinin istismarına icazə qaydaları haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında" 28 dekabr 2018-ci il tarixli Fərmanı ilə barəsində icazə tələb olunan, lakin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 89.1-ci (89.1.5-ci maddəsi istisna olmaqla) maddəsində nəzərdə tutulan ekspertizasının keçirilməsi tələb olunmayan tikinti obyektlərinin tikintisinə icazə və istismarına icazələrin verilməsi qaydaları sadələşdirilib.

Fərmana əsasən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə Bakı şəhəri üzrə tikinti obyektlərinin tikintisi və istismarına icazənin alınması üzrə elektron müraciət sisteminin yaradılması tapşırılıb. Artıq Şəhərsalma və Arxitektura Komitəsində Bakı şəhəri üzrə tikniti obyektlərinin tikintisi və istismarına icazənin alınması üzrə elektron müraciət sisteminin təqdimatı keçirilib.

Elektron müraciət sisteminin tətbiqindən sonra tikintiyə icazə almaq istəyən sahibkarlar hazırda olduğu kimi 4 quruma deyil, bir ünvana müraciət edəcək və digər dövlət orqanları ilə razılaşdırmalara ehtiyac qalmayacaq. Bu razılaşdırmaları Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirəcək. Sifarişçi sadəcə sistemə elektron qaydada müraciət edəcək və tələb olunan sənədləri elektron formada yükləyəcək.

Tikintiyə icazə qaydasının dəyişməsi orta ölçülü obyektlərə, yəni bir mərtəbəsinin sahəsi 150 kvadratmetrdən, tikilinin ümumi həcmi isə 1200 kubmetrdən artıq, aşırımlarının uzunluğu 6 metri keçməyən 1-2 mərtəbəli iaşə, ticarət, sosial və təsərrüfat təyinatlı obyektlərə aiddir.

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/code/22
http://e-qanun.az/framework/41170